AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

ZƏMİNƏ MƏHƏMMƏD qızı ƏSGƏROVA

# TÜRKİYƏDƏ AZƏRBAYCAN DİASPORUNUN FORMALAŞMASI (XX ƏSR)

Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu
Elmi Şurasının 2017-ci il 29 noyabr tarixli qərarı ilə
(Protokol №19) çap olunur

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI – 2021

**Lahiyə rəhbəri:** **Y.Mahmudov**
*əməkdar elm xadimi, Dövlət mükafatı laueratı, AMEA-nın həqiqi üzvü*

**Elmi rəhbər:** **M.H.Seyidbəyli**
*tarix üzrə elmlər doktoru, professor*

**Rəyçilər:** **S.İ.Əliyeva**
*tarix üzrə elmlər doktoru*

**Y.M.Babanlı**
*tarix üzrə fəlsəfə doktoru*

Zəminə Məhəmməd qızı Əsgərova.
TÜRKİYƏDƏ AZƏRBAYCAN DİASPORUNUN FORMALAŞMASI (XX ƏSR). Bakı: 2021,– 164 səh.

*Monoqrafiyada Türkiyə Cümhuriyyətində azərbaycanlıların məskunlaşması tarixi diaspor problemi kimi izlənilmiş, Azərbaycan diasporunun formalaşması və fəaliyyətini əks etdirən mərhələlər sistemli şəkildə araşdırılmışdır. Kitabda XX əsrdə azərbaycanlıların Türkiyə Cümhuriyyətinə axını, bu miqrasiyanın əsas səbəbləri, Azərbaycan diasporunun təşkilatlanma prosesi və mətbuatı, fəaliyyət istiqamətləri, siyasi mübarizə, ideoloji təbliğat, nəşriyyat işləri, mədəniyyət məsələləri, diaspor nümayəndələrinin ictimai-siyasi fəaliyyəti, Türkiyə Cümhuriyyəti və Azərbaycan Respublikası arasında münasibətlərdə diasporun yeri və rolu kimi vəzifələr müəyyənləşdirilmişdir.*

**ISBN** 978-9952-541-21-2

© Z.M.Əsgərova, 2021

# GİRİŞ

Müasir Azərbaycan dövlətinin xarici siyasətinin əsas istiqamətlərindən biri dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların birləşdiyi diaspor təşkilatları ilə aparılan iş təşkil edir. ABŞ, Avropa və Asiya ölkələrində fəaliyyət göstərən Azərbaycan diasporunun yaranması və formalaşması məsələləri milli tarixşünaslıq üçün elmi-siyasi əhəmiyyət kəsb edir və tədqiqi vacib problemlərdən sayılır.

XX əsrin sonlarından başlayaraq dünyada baş verən geosiyasi proseslər Sovet imperiyasının süquta uğramasından sonra mövcud dünya nizamının dəyişməsinə, yeni müstəqil dövlətlərin yaranmasına şərait yaratdı. Azərbaycan xalqı üçün ağır itkilərlə müşayiət olunan bu tarixi proseslərin baş verməsi nəticəsində Azərbaycan Respublikası da öz dövlət müstəqilliyini bərpa etdi. Azərbaycan xalqının öz dövlət müstəqilliyini bərpa etməsi Ümummilli lider Heydər Əliyev tərəfindən XX əsrin sonunda xalqımızın ən mühüm nailiyyəti kimi qiymətləndirilmişdir. Ümummilli lider tərəfindən diaspora siyasətinin müəyyən edilməsi xarici ölkələrdə yaşayan azərbaycanlılara diqqət və qayğını artırmağa imkan yaratdı. Gənc Azərbaycan dövlətinin bu istiqamətdə yeritdiyi siyasət milli tarixşünaslıqda bu dövrə qədər araşdırılmamış diaspor probleminin həm elmi-tarixi, həm də siyasi-ideoloji aspektdən tədqiq edilməsi zərurətə çevrildi.

Bu gün dünyanın beş qitəsinə səpələnən azərbaycanlılardan ibarət diaspor kontingentinin tarixən əsas pənah apardıqları ölkələrdən biri Türkiyə Cümhuriyyətidir. Azərbaycanla Türkiyə arasında tarixən etnik mənsubiyyət, tarixi bağlılıq baxımından sosial, mədəni, siyasi-iqtisadi əməkdaşlıq olmuşdur. Bu münasibətlər azərbaycanlıların tarixən qardaş Türkiyədə sığınacaq tapmaları üçün başlıca səbəblərdir. Məhz sadalanan amillər Türkiyə Cümhuriyyətində Azərbaycan diasporunun yaranması, formalaşması tarixinin tədqiq edilib öyrənilməsini və ümumiləşdirilməsini olduqca vacib edir.

Təsadüfi deyil ki, Ümummilli lider Heydər Əliyev türkdilli xalqlarla

münasibətlərin genişləndirilməsinin vacibliyini böyük uzaqgörənliklə önə çəkmişdir. Hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinə rəhbərlik etdiyi dövrdə ümummilli liderin, xüsusilə də Türkiyə ilə ən müxtəlif sahələrdə əlaqələrin genişləndirilməsi istiqamətində əldə etdiyi nəticələr bunu bir daha təsdiq edir.

1991-ci ildə SSRİ-nin süqutu nəinki Azərbaycanın, eləcə də bütün türk dünyasının tarixində yeni bir mərhələnin başlanması ilə nəticələndi. Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında münasibətlər 30 ildir ki, sürətlə inkişaf edir.

1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya Aktını alqışlayan ilk dövlətlərdən biri də məhz Türkiyə Respublikası olmuşdur [2, 6]. Müstəqilliyin möhkəmləndirilməsi, Azərbaycan Respublikasının iqtisadi gücünün artırılması və beynəlxalq aləmlə siyasi əlaqələrinin qurulması üçün etibarlı tərəfdaşların dəstəyinə böyük ehtiyac duyulduğu bir vaxtda Azərbaycan xalqı belə bir dəstəyi Türkiyə dövlətindən almışdır.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra iki ölkə arasında münasibətlər daha sürətlə inkişaf etməyə başlamışdır. Hazırda regionda həyata keçirilən qlobal miqyaslı layihələrdə Azərbaycan Respublikasında Türkiyə Cümhuriyyəti fəal tərəfdaş kimi tanınır. Belə ki, 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi"ndə əsas tərəfdaşlardan birinin məhz Türkiyə Cümhuriyyətinin olması iki ölkənin iqtisadi maraqlarının üst-üstə düşməsinin parlaq göstəricilərindən biridir.

Yuxarıda qeyd olunduğu kimi müstəqilliyini bərpa etmiş Azərbaycan dövlətinin qarşısında duran əsas vəzifələrdən biri də xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, onların ölkəmizin ümumi maraqlarının müdafiəsi işinə cəlb edilməsi oldu. Məhz Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə ikinci dəfə qayıtmasından sonra ölkəmizin diasporla bağlı vahid dövlət strategiyası müəyyənləşdi, diaspor quruculuğu Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Bu baxımdan Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi xarici siyasətin başlıca istiqamətlərindən biri kimi diaspor quruculuğu işinin öyrənilməsi zərurəti də





tədqiqatın prioritet olduğunu sübut edir.

Ümummilli lider Heydər Əliyev xarici ölkələrə səfərlərində dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılarla görüşür, onları tarixi vətənin mənafeləri ətrafında sıx birləşməyə çağırırdı: "Biz nəinki, təkcə müstəqil Azərbaycanın dövlətçiliyinin qorunması, möhkəmləndirilməsi və inkişaf etməsi uğrunda, eyni zamanda bütün azərbaycanlıların milli hüquqlarının, tarixi haqlarının həyata keçməsi ilə bağlı ciddi iş aparmalıyıq. Bütün bu müqəddəs vəzifələrə nail olmaq üçün biz azərbaycançılığın dövlət rəmzlərini yaşadan müstəqil dövlətimiz ətrafında sıx birləşməliyik" [12, 42].

Təsadüfi deyil ki, müdrik siyasətçinin xarici ölkələrdə yaşayan azərbaycanlılarla ilk görüşü 1994-cü il fevralın 10-da Türkiyə Cümhuriyyətinə rəsmi səfəri zamanı olmuşdur. Həmin görüşdə Heydər Əliyev Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasındakı dostluq və qardaşlıq münasibətlərinin möhkəmləndirilməsini xüsusi olaraq vurğulamışdır: "Tarixə nəzər salsaq, bir daha görərik ki, Türkiyə ilə Azərbaycan bir xalq, bir millət kimi qəbul olunub. Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr əsrlərdən əsrlərə keçərək bu iki ölkənin qabaqcıl, bilikli adamları, siyasətçiləri, sərkərdələri vasitəsilə formalaşıb, inkişaf edib bu günümüzə gəlib çatmışdır. Azərbaycanlıların ən çox yaşadığı ölkələrdən biri də Türkiyədir. Biz istəyirik ki, burada da, bütün dünyada azərbaycanlılar bir olsunlar. Bizim arzumuz, istəyimiz budur" [14, 15].

Nəticədə demək olar ki, Türkiyə Cümhuriyyətinin böyük şəhər və əyalətlərində tarixən azərbaycanlılar yaşamış, bu gün də yaşamaqdadırlar. Digər xarici ölkələrlə müqayisədə Türkiyə Cümhuriyyətində milli-mədəniyyət mərkəzləri və cəmiyyətləri sayca daha çox, yaranma tarixləri etibarı ilə daha təcrübəlidirlər.

Azərbaycan diasporu məskunlaşdığı ölkələrdəki müxtəlif tipli miqrasiyaların, müxtəlif mədəniyyətlərin və siyasi vəziyyətlərin qarşılıqlı təsirinin nəticəsidir.

XX əsr Azərbaycan diasporunun formalaşması tarixində xüsusi bir mərhələ təşkil edir. XX əsrin əvvəllərində Rusiya imperiyasında baş verən

sosial-siyasi dəyişikliklər, bu hadisələrin Şimali Azərbaycanda milli şüurun formalaşmasına təsiri fonunda milli azadlıq hərəkatının, Şimali Azərbaycanın müstəmləkə əsarətindən xilası üçün milli mübarizəsi və mübarizəni boğmaq üçün çarizmin əl atdığı qanlı vasitələr, 1918-ci ildə AXC-nin qurulması və 1920-ci il də onun Sovet Rusiyasının hərbi təcavüzü nəticəsində süqutu, Cümhuriyyət qurucularının və tərəfdarlarının bolşeviklər tərəfindən ciddi təzyiqlərə və təqiblərə məruz qalması miqrasiya dalğasının yaranmasına gətirib çıxartdı. Bu proses nəticəsində azərbaycanlıların öz vətənlərini tərk edib qonşu ölkədə – Türkiyədə məskunlaşması və sonradan diaspor olaraq formalaşması prosesinin tədqiqi xüsusi elmi aktuallıq kəsb edir.

XX əsrin əvvəllərində Türkiyə-Azərbaycan münasibətlərindən danışarkən Türkiyənin istiqlal müharibəsində azərbaycanlıların böyük xidmətləri unudulmamalıdır. Birinci Dünya müharibəsi illərində bütün çətinliklərə baxmayaraq, Türkiyə türklərinin azərbaycanlı qardaşlarının köməyinə tələsdikləri kimi, azərbaycanlılar da Türkiyənin istiqlal mübarizəsində həm iqtisadi, həm siyasi, həm də hərbi baxımdan onların yanında olmuşlar.

II Dünya müharibəsi illərində almanlar tərəfindən əsir alınmış və Vətənə dönə bilməyən azərbaycanlılardan ibarət icmaların yaranması da Türkiyədə Azərbaycan diasporunun formalaşmasının növbəti mərhələsi kimi səciyyələndirilir.

Nəhayət, XX əsrin sonlarında SSRİ-nin süqutu və Azərbaycanın müstəqillik qazanmasında yüzlərlə soydaşımız Avropa ölkələrində, o cümlədən Türkiyədə məskunlaşmışdır. Bu, Türkiyədə Azərbaycan diasporunun təşəkkülünün yeni mərhələsi kimi dəyərləndirilir.

Türkiyə Cümhuriyyətində Azərbaycan diasporunun yaranma tarixini, fəaliyyət dairəsini əks etdirən mərhələlərin sistemli şəkildə öyrənilməsi mövzunun tədqiqinin aktuallığını şərtləndirən amillərdəndir. Bu tədqiq nəticəsində uzun illər sovet ideologiyasının təsiri altında formalaşmış tariximizin qaranlıq məqamları aydınlaşdırılır.

Türkiyə Cümhuriyyətində Azərbaycan diasporunun fəaliyyət dairəsinə daxil olan bütün sahələri özündə ehtiva edən, yaşadan zəngin mənbə kimi mühacirət mətbuatının öyrənilməsi də xüsusi əhəmiyyətə malikdir.

Tədqiqat işində Türkiyə Cümhuriyyətində Azərbaycan diasporunun yaranması və formalaşması milli kontekstdə tədqiq edilmişdir.

Türkiyə və Azərbaycan diaspor təşkilatlarının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində fəaliyyətinin araşdırılması zərurəti də tədqiqatın aktuallığını sübut edir.

Ümummilli lider Heydər Əliyevin iradəsi və rəhbərliyi ilə müstəqilliyimizin ilk illərində dünya azərbaycanlılarının maraq və mənafeyinin təminatçısı Azərbaycan Respublikasının olduğu rəsmən bəyan edilmiş və xaricdə yaşayan azərbaycanlılarla sistemli iş aparılmasına başlanılmışdır. Beləliklə, 1991-ci il 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan edilmiş, 2001-ci il noyabr ayının 9-10-da Dünya Azərbaycanlılarının I Qurultayı keçirilmiş, 2002-ci il 5 iyul tarixdə Xaricdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsi yaradılmış və 2003-cü ilin 21 fevrral tarixində isə «Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» qanun qəbul edilmişdir. Heydər Əliyevin Azərbaycan dövlətinin xarici siyasət strategiyasında və ümumilikdə diaspor quruculuğu işindəki fəaliyyətinin öyrənilməsi zərurəti tədqiqatın aktuallığını şərtləndirən ən ümdə məsələlərdən biridir. Ümummilli lider H.Əliyevin dünya azərbaycanlılarının vahid məqsəd ətrafında birləşdirmək siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir.

Göründüyü kimi Türkiyə Cümhuriyyətində Azərbaycan diasporunun formalaşması və inkişafı tarixinin araşdırılması, elmi-nəzəri dəyərləndirilməsi problemə dair sistemli və iri həcmli tədqiqat işinin hazırlanmasını zərurətə çevirmişdir.

Son illər diaspor problemi bir çox elm sahələrinin, o cümlədən tarix, sosiologiya, etnologiya, fəlsəfə, dinşünaslıq elmlərinin maraqlı tədqiqat obyektinə çevrilmişdir. Müxtəlif zamanlarda diasporun tarixi, onun yaranma səbəbləri, qarşılaşdığı problemlər tədqiq olunmuşdur.

XX əsrin sonlarında bir sıra ölkələrin (Rusiya Federasiyası, Fransa,

demoqrafik aspektlərini öyrənməkdə ən dəyərli əsərlərdən biri kimi mühüm əhəmiyyətə malikdir.

N.Rizvanın "Azərbaycan diasporunun tarixindən" adlı kitabında diaspor, onun yaranma tarixi, fəaliyyəti haqqında maraqlı faktlar araşdırılmışdır. Kitabda Azərbaycan xalqının orta əsrlər dövründən XX əsrə qədərki mühacirət tarixi və bu tarixin milli icmaların yaranmasına göstərdiyi təsir imkanları qiymətləndirilmişdir.

V.Arzumanlının "Azərbaycan diasporu: (reallıqlar, qayğılar, problemlər)" adlı kitabında Azərbaycan diasporunun aktual problemləri nəzərdən keçirilmiş, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız tərəfindən yaranmış diaspor təşkilatları haqqında maraqlı məlumatlar verilmişdir. Kitabda Rusiya Federasiyası və MDB-nin digər dövlətlərində, Avropa ölkələrində, Türkiyədə, ABŞ-da, Kanada və Avstraliyada olan Azərbaycan diasporlarının fəaliyyəti işıqlandırılmışdır [26].

V.Həbiboğlunun "Heydər Əliyev və Azərbaycan diasporu" kitabında uzun illər Azərbaycan xalqının rifahı yolunda yorulmadan çalışan Heydər Əliyevin milli diasporun inkişafında rolu və müxtəlif ölkələrdə soydaşlarımızla görüşü və s. məsələlər öz əksini tapmışdır [72]. Müəllif kitabda haqlı olaraq qeyd edir ki, Azərbaycanda diaspor quruculuğu sahəsində məqsədyönlü işin aparılması məhz Heydər Əliyevin hakimiyyətə gəlişi ilə bağlıdır. Müəllif "Azərbaycan diasporu yeni mərhələdə" adlı monoqrafiyasında isə ölkə prezidenti İlham Əliyevi bütün sahələrdə olduğu kimi, məhz diaspor quruculuğu sahəsində də həmin siyasi xəttin layiqli davamçısı kimi qiymətləndirmişdir [73].

Azərbaycan diasporu ilə bağlı daha bir elmi əsər V.Arzumanlı və A.Hüseynovun "Azərbaycan ünvanlı" kitabıdır. Əsərdə hər iki tədqiqatçı soydaşlarımızın dünyanın müxtəlif guşələrində yaratdığı cəmiyyət və ictimai birliklər haqda, onların internet saytları barədə məlumatlar vermişlər.

Tədqiqat mövzusunun işlənməsində 2012-ci ildə Diasporla iş üzrə Dövlət Komitəsi tərəfindən buraxılmış "Azərbaycan diasporu-ensiklopedik məlumat toplusu"ndan dəyərli mənbə kimi istifadə olunmuşdur. Topluda Azərbaycan Respublikası Prezidentinin diasporun inkişafına xidmət





edən fərman və sərəncamları, diaspor nümayəndələri ilə keçirdiyi görüşlər, Azərbaycan diasporunun tarixi, məskunlaşma coğrafiyası və diasporla bağlı digər məlumatlar toplanmışdır [12].

Bundan başqa Komitə tərəfindən hazırlanmış "Azərbaycan diasporu: Böyük yolun başlanğıcı", "Azərbaycan diasporuna dövlət qayğısı" I, II, III kitablar Azərbaycan diasporu haqqında dəyərli mənbələr kimi mühüm əhəmiyyətə malikdir.

Tədqiqat zamanı X.İbrahimlinin "Azərbaycan siyasi mühacirəti (1920-1991-ci illər)", A.Həşimovanın "XX əsrin I yarısında Azərbaycan mühacirəti", A.Tahirlinin "Azərbaycan mühacirəti", "Azərbaycan mühacirət mətbuatı", Ş.Həsənovanın "Mühacirət irsimizdən səhifələr", N.Yaqublunun "Məmməd Əmin Rəsulzadə", "Azərbaycan legionerləri", Aydın Balayevin "M.Ə.Rəsulzadə (1884-1955)", Nəsib Nəsibzadənin "Azərbaycan Demokratik Respublikası", M.Oruclunun "Azərbaycanda və mühacirətdə Müsavat Partiyasının fəaliyyəti" əsərlərinə müraciət olunmuşdur. Göstərilən əsərlərdə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Türkiyə və Avropanın digər ölkələrinə mühacirət edən ziyalılarımızın fəaliyyətini işıqlandıran materiallar tədqiqat mövzumuzun yazılmasında mühüm rol oynamışdır.

Z.Əliyevin "Beynəlxalq münasibətlərdə diasporların rolu", "Dünya diasporları", "Türkdilli xalqların diasporları", "Diaspor: izahlı sözlük və məlumat kitabı" adlı əsərlərində diasporun beynəlxalq münasibətlərdə rolu, diasporların formalaşma tarixi, diasporun bir çox prinsipial məsələləri tədqiq edilmişdir.

Qeyd etdiyimiz kimi, milli diaspor ilə bağlı ayrı-ayrı ölkələr üzrə tədqiqatlar aparılsa da, Türkiyədə Azərbaycan diasporunun tarixi, formalaşması, inkişafı məsələləri sistemli şəkildə araşdırılmamışdır. Bu baxımdan, təqdim etdiyimiz tədqiqat işi qeyd olunan mövzuda müqayisəli kompleks yanaşma metodu ilə yazılmış ilk iş hesab oluna bilər.

Tədqiqat işində orta əsrlər dövründən Türkiyədə azərbaycanlıların məskunlaşması tarixinə diaspor problemi kontekstində yanaşılmış, AXC-nin süqutundan sonra Azərbaycan mühacirlərinin keçdiyi çətin mübarizə yolu, elmi fəaliyyəti, II Dünya müharibəsindən sonra diasporun sıralarının



**Hörmətli oxucu,**

**“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.**